# XI-XIV ƏSRLƏRDƏ AZƏRBAYCANDA TORPAQ MÜNASİBƏTLƏRİ VƏ VERGİ SİSTEMİNİN BƏZİ CƏHƏTLƏRİ

**X.C.İSMAYILOV**
***Bakı Dövlət Universiteti***

*Məqalədə feodalizm münasibətlərinin tam formalaşdığı və inkişafa doğru istiqamətləndiyi dövrlərdə Azərbaycanda mövcud torpaq sahibliyi formalarının və vergi sisteminin özəllikləri barədə məlumat verilir. Baxılan dövrdə sənaye istehsalının və kənd təsərrüfatının dirçəlişi, ilk növbədə xarici və daxili ticarətin inkişafı üçün əlverişli şərait yaratmış, Azərbaycanın iqtisadi əlaqələrinin gələcək inkişafının təməlini qoymuşdu. Bu xüsusda məqalədə torpaq üzərində sahibliklə bağlı, dövlətin və ayrı-ayrı sahibkarların qapşısında vergi ödənişi və mükəllafiyyətlərin icrası öhdəlikləri ilə əlaqədar yaranan yeni münasibətlərin təhlili ön plana çəkilir.*

XI-XIV əsrlərdə Azərbaycan feodal dövlətləri mütəmadi bir xarakter alan basqınların, xarici qüvvələrin təsirinə baxmayaraq Azərbaycanda feodal münasibətlərinin, ələlxüsus məhsuldar qüvvələrin inkişafı yolunda mühüm addımlar atmışdı. Təsərrüfatın canlanması, sənətkarlığın, ticarətin inkişafı, şəhərlərin tərəqqisi, feodal rentasında pul sisteminə marağın artması, türkdilli yerli əhalinin iqtisadi və siyasi mövqeyinin möhkəmlənməsi, türk dilinin ictimai həyatda geniş intişar tapması, onun əhatə və təsir dairəsinin genişlənməsi müşahidə olunurdu. Xüsusilə XII əsrdə feodal münasibətləri özünün yüksək inkişaf səviyyəsinə çatmışdı. Bu münasibətlərin inkişafı mövcud dövlət torpaq sahibliyi ilə yanaşı iri feodal mülklərinin də üzə çıxmasına, feodal və kəndli siniflərinin formalaşması və daha da təkmilləşməsinə səbəb oldu.

Azərbaycan dövlətçiliyinin təşəkkülünə, tərəqqisinə təkan verən amillərlə yanaşı, onun zəifləməsinə, parçalanmasına gətirib çıxaran səbəblər də az deyildi. Belə ki, bu dövrdə yaranmış vəziyyət, xüsusilə hakim sülalə üzvlərinə və iri feodallara «iqta» və ya «soyurqal» adı altında şəhərlərin və əyalətlərin paylanması təcrübəsinin geniş vüsət alması feodalların əhali üzərində qeyri-məhdud hakimiyyətinin bərqərar olmasına gətirib çıxarmış, torpaq münasibətlərində kəndlilərin daha çox asılı vəziyyətə salınması, onların yerinə yetirdikləri mükəlləfiyyətlərin və vergilərin çoxalması ilə nəticələnmişdi. Dözülməz vergi sistemi müəyyən edilmiş, soyğunçuluq və quldurluq adi hala çevrilmiş və dövlət tərəfindən qoyulan tədiyyələrin məbləği daha da artırılmışdı. Əməkçi əhalinin ağır formada istismarı ilə əlaqədar sinfi ziddiyyətlər hədsiz dərəcədə kəskinləşmişdi. Bu ziddiyyətlər Azərbaycanın müxtəlif yerlərində feodal istismarına qarşı çıxışlar və üsyanlarla müşayiət olunurdu. XIII əsrin sonu – XIV əsrin əvvəllərində həyata keçirilən bir

sıra dövlət islahatları nəticəsində torpaq sahibliyi formalarının hüquqi vəziyyətində və vergi sistemində müəyyən qayda yaradılsa da, sonrakı dövrdə ictimai-siyasi həyatdakı pərakəndəlik bu məsələlərə öz mənfi təsirini göstərmişdi.

Bu dövrlərdə ölkənin əsas ictimai və iqtisadi özülü olan torpaq münasibətləri formalaşmaqda və inkişaf etməkdə idi. XI-XIV əsrlərdə Azərbaycanda başlıca torpaq mülkiyyəti növlərini aşağıdakılar təşkil edirdi: iqta, mülk-i divani (dövlət torpaqları), mülk-i xass (hökmdarın, yaxud hakim xanədan üzvlərinin şəxsi torpaqları, bu torpaqlar Atabəylərdə tac torpaqları, Elxanilərdə isə incu torpaqları adlanırdı), soyurqal (bəxşişlər), vəqf (dini idarələr tərəfindən vəsiyyət edilmiş torpaq və mülklər), mülk (feodalların və azad kəndlilərin xüsusi mülkiyyəti), camaat (icma torpaqları), uc torpaqları (sərhəd torpaqları).

Torpaq sahibliyi formaları içərisində əsas yeri dövlətə məxsus olan torpaqlar tuturdu. Belə torpaqlardan əldə edilən gəlirlər dövlət xəzinəsinə daxil olur və dövlət aparatının, ordunun saxlanılmasına, müxtəlif dövlət əhəmiyyətli tədbirlərin həyata keçirilməsinə məsrəf edilirdi. Dövlətə məxsus olaraq bu torpaqlar hərbi yürüşlər nəticəsində yeni ərazilərin ələ keçirilməsi hesabına, habelə cəzalandırılan feodalların mülklərinin ələ keçirilməsi yolu ilə genişlənirdi.

Əhəmiyyətli yerlərdən biri mülk-i xass və ya əmlak əl-xass[1] adlandırılan xüsusi torpaq sahibliyinə məxsus idi. Xass (tac) torpaq sahibliyi forması Azərbaycanda X-XII əsrlərdə meydana gəlmişdi və spesifik xüsusiyyətlərə malik idi. Səltənət başçılarının şəxsi mülkiyyətində olan bu torpaqlardan əldə edilən gəlirlər yalnız xanədanın ehtiyaclarına sərf olunur, digər məqsədlər üçün istifadə edilməsi qadağan edilirdi. Dövlət başçısı mülk-i xassdan yalnız hakim sülalə üzvlərinə iqta şəklində torpaq nadelləri paylaya bilərdi. Hakim sülaləyə məxsus olmayan şəxslərə iqtalar əsasən mülk-i divanidən, yəni dövlət torpaqlarından ayrılırdı.

XIII əsrin ikinci yarısında torpaq üzərindəki dövlət mülkiyyət formasının nəzərəçarpacaq dəyişikliklərə məruz qaldığı müşahidə edilir. Monqol feodal və hərbçiləri tərəfindən zəbt edilmiş torpaq sahələrinin əksəriyyəti otlaqlara çevrilmiş, böyük bir hissəsi isə elxanilərə və onların yaxınlarına məxsus idi. Hökmdarın, həmçinin hakim sülalə üzvlərinin mülkiyyətində olan torpaqlar «incu»[2] termini ilə, şəxsən hökmdara məxsus olan torpaqlar isə «incu xass» termini ilə ifadə edilirdi. «İncu» torpaqlarında yaşayan kəndlilərə də «incu kəndliləri» deyilirdi. Şəhər sənətkarları da hüquqi cəhətdən «incu» içərisinə daxil idi, çünki onlar da öz sosial vəziyyətlərinə görə həmin kəndlilərə bənzəyir, hökmdara məxsus emalatxanalarda çalışırdılar. «İncu» torpaq mülkiyyət formasının yaranma mənbəyini, başlıca olaraq, monqolların gəlişinə qədərki hökmdar torpaqları ilə yanaşı, yerli feodallara aid olan torpaqlar, həmçinin vəqf və kilsə torpaqları təşkil edirdi. Əvvəllərdə olduğu kimi, divan torpaqları kateqoriyası da mövcud idi. Buraya, əsasən, dövlət torpaqları daxil idi.

«İncu» və «divan» torpaq kateqoriyaları arasında elə bir prinsipal

---

[1] Bu terminin mahiyyəti ilə bağlı ətraflı bax: Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti. Bakı, 1985, s.181, 213-214; Şərifli M.X. IX əsrin ikinci yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı, 1978, s.279.

[2] Bu termin haqqında ətraflı bax: Ализаде А.А. К вопросу об институте «инджу» в Азербайджане. Сборник статей по истории Азербайджана. Баку, 1949, с.95-108.

fərq yox idi və onlar ümumilikdə hökmdarın ixtiyarında olan dövlətin torpaq fondunu təşkil edirdilər. Fərq yalnız divan torpaqlarının sahibi-divan tərəfindən idarə olunmasında və onun gəlirinin ümumdövlət məqsədlərinə (ordunun, mərkəzi və yerli aparatın və s. saxlanmasına) sərf edilməsində, «incu»lardan əldə olunan gəlirin isə hökmdarın, onun ailəsinin və saray əyanlarının tələbatlarına xərclənməsində idi. «İncu»ların idarəçiliyində hökmdar tərəfindən təyin edilən hakimi-incu və ya maliki-incu adlanan vəzifəli şəxs tərəfindən həyata keçirilirdi və bu məqsədlə diyan-i incu adlanan xü3susi bir idarə təsisatı da yaradılmışdı.

Feodallara və ayrı-ayrı şəxslərə məxsus olan torpaqlar mülk adlanırdı. Mülklər irsən keçə, satıla, bağışlanıla və digər formada özgəninkiləşdirilə bilərdi. Mülk böyük və ya kiçik ərazini əhatə edən və burada sakin olan kəndlilərlə birlikdə satıla bilən və nəslə keçən torpaq üzərindəki xüsusi mülkiyyətin bir növü idi. Mülk torpaq sahələri çox kiçik sahələri əhatə etdiyi kimi, çox böyük sahəni də əhatə edə bilirdi. Bu torpaq sahibliyi formasının mənsub olduğu şəxslər, yəni mülk sahibləri malik və ya mülkədar adlandırılırdı. Maliklər öz əmlakı üzərində tam sərəncam vermə hüququna malik idilər, yəni onu sata, bağışlaya, dəyişdirə, girov qoya və ianəyə verə bilərdilər. Bu torpaqlardan əldə edilən natural renta mülk sahibinə məxsus idisə də, onlar dövlət xəzinəsinə müxtəlif adlar altında müəyyən edilmiş vergiləri ödəməyə məcbur idilər.

Mülk torpaqları dövlətə məxsus ərazilər kimi, bir sıra hallarda icarəyə verilirdi. İcarəçi kəndlilər torpaq sahibindən feodal asılılığında idi və bu, bir çox hallarda irsi asılılığa çevrilirdi. Torpaq sahibinin, mülkədarın yardar üzərində ilkin mühakimə hüququ var idi və aralarındakı mülki iddiaları özü həll edirdi. Feodala məxsus olan məhkəmə hüququ, yəni feodal məhkəmələrinin mövcudluğu inkişaf etmiş feodal mülkiyyətinin atributu qismində çıxış edirdi. İcarəçi kəndlilərin hüquqi və sosial durumunun ağırlığı, bu qrup torpaqsız kəndlilərin feodallar tərəfindən amansızcasına istismar olunmasında, onların illik məhsulun üçdə birini, yarısını, bəzən isə daha çox hissəsini mülkədara təhvil verməsində, özlərində qalanın isə 30%-dən artıq olmamasında özünü biruzə verirdi.

Torpaq üzərində mövcud olan mülkiyyət formalarından biri də «iqta» adlanırdı. İlkin olaraq, yəni ərəb işğalından sonrakı dövrdə, «iqta» ərazinin müvəqqəti idarəetməyə ötürülməsini ifadə edirdi. Sonralar bu terminin mahiyyəti bir qədər dəyişmişdi və müəyyən xidmətlərə görə dövlət fondundan torpaqların ayrılmasını nəzərdə tuturdu. M.Şəriflinin qeyd etdiyinə görə iqta torpaq sahibliyi XI əsrin ortalarına qədər torpaq üzərində mülkiyyətin ən mühüm və geniş yayılan növü ola bilməmişdi[3].

«İqta» əsasən iki növdən ibarət idi. Bunlardan biri «iqta ət-təmlik», digəri isə «iqta əl-istiqlal» adlanırdı. Birinci növ iqta torpağın paylanmasını, ikinci isə torpaqdan alınan gəlirin bölüşdürülməsini əks etdirirdi. Birinci növ iqta adı ilə becərilməyən, yəni istifadə olunmayan torpaqlar verilirdi. Bu da öz növbəsində becərmə işini genişləndirmək və dövlətin mədaxilini artırmaq məqsədini güdürdü. İkinci növ iqta torpaqlarının paylanmasında müxtəlif amillər əsas götürülürdü. Bir tərəfdən kənd və ya icma başçılarını, ordu rəhbərlərini, dövlət

---

[3] Şərifli M.X. IX əsrin 2-ci yarısı – XI əsrdə Azərbaycan feodal dövləti, 1978.

tərəfdarlarını və s. yaşayış vasitələri ilə təmin etməк və həvəsləndirməк, digər tərəfdən isə işğal edilmiş xalqları dövlətin arxası sayılan feodal-zadəgan silкinin itaətində saxlamaq nəzərdə tutulurdu.

Torpaqların «iqta» şəкlində paylanılması səlcuqlar dövründə höкmdarların hərbi rəislərə xidmətləri müqabilində onlara torpaq bağışlaması zamanı geniş tətbiq olunurdu. Belə torpaqlardan dövlət müvafiq renta və zəruri hallarda müəyyən sayda döyüşçülərin göndərilməsini tələb edirdi. Bu və ya digər torpaq sahəsinin verilməsi iqta sahibinə heç də bütün hüquqların ötürülməsi deməк deyildi. Belə torpaqlar müəyyən şəxslərə «iqta» şəкlində verilməsindən sonra da dövlətin mülкiyyətindən tam ayrılmırdı və höкmdar ona olan hüququnu itirmirdi. Ələlxüsus, höкmdar torpaq sahibinin – iqtadarın və ya muqtanın razılığını almadan müstəqil olaraq vergi yığılması hüququnu özündə saxlayırdı.

İqtanın ayrılması zamanı onun sahibinə – iqtadara dinə uyğun hərəкət etməк, tabeçiliyində olanlara qarşı layiqli münasibət göstərməк, onlara qayğı ilə yanaşmaq, vergiləri ədalətli şəкildə toplamaq, rəiyyətin hüquqlarını pozmamaq, onların var-yoxdan çıxmasına səbəb olan addımlar atmamaq кimi göstərişlər verilirdi. Əкs təqdirdə istənilən anda dövlət tərəfindən iqtanın ondan geri alınacağı, onun tənbeh ediləcəyi barədə xəbərdarlıq edilirdi. Əкsər hallarda iqtaların mühafizəsi, onların yerləşdiкləri ərazilərin abadlığına nəzarət edilməsi bilavasitə iqtadarların özlərinə həvalə edilirdi.

İqtadarlar verginin yığılması işində diqqətli olmalı, ləyaqətli və düzgünlüyə riayət edən vergi yığıcıları (amillər, münasiflər), maliyyə müfəttişləri (mütəsərriflər) təyin etməli idilər[4]. Dövlət tərəfindən iqtadarlara verilən hüquqlardan biri də iqta torpağında yaşayan кəndlinin bu torpağı buraxaraq başqa yerə gedə bilməsinin qadağan edilməsi və belə hallarda iqta sahibinin müvafiq tədbirlər görməsinə icazə verilməsi idi.

İqta xidmətə görə verildiyi üçün irsi mülкiyyət hesab olunmurdu. Laкin mərкəzi haкimiyyətin zəiflədiyi zaman iqta sahibləri bu torpaq növünü torpaq sahibliyinin başqa formasına – mülкə çevirməyə çalışırdılar. İqta torpaq sahəsi olan feodal bu torpaq sahəsini bəzən müqatiə verirdi. Ümumiyyətlə, Yaxın və Orta Şərq ölкələrində olduğu кimi, Azərbaycanda da iqta torpaqları alan şəxslər bir qayda olaraq şəhərlərdə yaşayır və yaxud orduda xidmət edirdilər. Onlar özləri iqta torpaqlarında təsərrüfatla məşğul olmurdular. İqta torpaq sahələrində saкin olan кəndlilər iqta sahibinə becərdiкləri torpaq üçün pul və yaxud məhsul ilə müəyyən edilmiş tarif üzrə torpaq rentası verməli idilər. Ümumiyyətlə, torpaq sahələri müqatiə verildiyi zaman torpağın кeyfiyyətinə, su, iş heyvanı və s.-yə görə кəndli icarə haqqı verməli idi.

Qazan xanın islahatlarından sonra iqta torpaq sahiliyinin mahiyyətində dəyişiкliкlər baş vermiş və bu başlıca olaraq dövlət xəzinəsinin mənafeyi, hərbi xidmətə marağın artırılması, sərhəd rayonlarının müdafiəsinin gücləndirilməsi ehtiyacı ilə əlaqələndirilmişdi. Hərbçilərə paylanılması nəzərdə tutulan iqta torpaqlarının satılması, hədiyyə edilməsi qadağan olunurdu. Hərbçinin varisi – oğlu və ya digər yaxın qohumu orduda xidmət etdiyi halda iqtanın həmin şəxslərə irsən кeçməsinə icazə verilirdi.[5].

---

[4] Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti. Baкı, 1985. s.183.

[5] Фалина А.И. Реформы Газан-хана. «Ученые записки института Востоковедения», т. XVII, 1959, с.71.

Həmin dövrdə «soyurqal» adlanan torpaq sahibliyi formasının da mövcudluğu haqqında müxtəlif mənbələrdə məlumatlara rast gəlinirdi. Göstərilən termin torpaq sahəsinin hədiyyə, bəxşiş şəklində verilməsini ifadə edirdi və iqtadan fərqli olaraq soyurqal hərbçilər tərəfindən deyil, başlıca olaraq vilayət hakimlərinə, ruhanilərin nümayəndələrinə, dövlət qarşısında xidmətləri olan digər mülki şəxslərə paylanılırdı.[6]

Bir feodal torpaq mülkiyyəti institutu kimi soyurqal mülkləri XIV əsrin sonlarında Azərbaycanın sosial-iqtisadi həyatında mühüm rola malik idi. Soyurqal məmurlara maaş əvəzinə, yaxud ayrı-ayrı şəxslərə təqaüd əvəzinə bağışlanan torpaq, ya da torpaqdan alınan gəlir qismində çıxış edirdi. Müəyyən məbləğ pul ilə verilən soyurqala da mənbələrdə rast gəlinir. Bu baxımdan soyurqalın üç növünü ayırd etmək olar: torpaqla verilən soyurqal; pul ilə verilən soyurqal; müştərək istifadə üçün verilən soyurqal.

Soyurqalın xarakterik xüsusiyyəti rəsmi hökmdar fərmanı (hökmü – ehkami-soyurqal) ilə müəyyən şəxsə verilən topaq sahəsinə həmin şəxsin xüsusi sənəd (nişani-soyurqal) əsasında tam sahib olmasında və bu sahədə bilavasitə onun özünün vergi yığmaq (o cümlədən də həmin vaxtadək dövlət xəzinəsinə ünvanlanan bütün vergiləri) və mükəlləfiyyətləri icra etdirmək hüququnun tanınmasında ifadə olunurdu. Belə çıxırdı ki, soyurqal sahibləri, həm də, vergi immunitetinə malik idi.

Hər bir yeni hökmdar mövcud ənənəyə görə, formal da olsa əvvəllər verilmiş soyurqal mülklərinin qanuniliyini təsdiq etməli idi. Soyurqalların verilməsi haqqında müxtəlif hökmdar fərmanlarının məzmunundan bəlli olur ki, soyurqal sahibliyi irsi xarakter daşıyırdı və onun sahibi mütləq şəkildə öz hökmdarının xidmətində olmalı idi. Xidmətin aparılması, adətən, könüllülüyə əsaslanırdı və verilən torpaq ərazilərinin harada yerləşməsindən asılı deyildi. Soyurqal sahibi basqınlardan müdafiə olunması və ona verilən ərazidəki kəndlilərin üzərində hökmranlığını və öz mövqeyini möhkəmləndirməsi üçün mərkəzi hakimiyyət tərəfindən siyasi yardıma və himayəyə ehtiyac duyduğu anadək öz süzereninə xidmət göstərirdi. Süzerenin əmri ilə soyurqal sahibi dərhal müəyyən olunmuş yerə öz dəstələri (çerikləri) – vassallardan və rəiyyətlərdən ibarət yığma qoşunu ilə gəlməli idi.

Hökmdarlar soyurqal verməklə mərkəzi hakimiyyəti möhkəmləndirməyə və dövlətdə birlik yaratmağa səy göstərirdilər, lakin bunun əksi alınmış, soyurqal sahibləri varlanaraq, mərkəzi hakimiyyətlə hesablaşmamağa başlamışdılar. Soyurqal sahibləri öz torpaqlarında tam müstəqil idilər və dövlət məmurlarının həmin torpaqlardan vergi yığmalarına nəinki yol verilmir, hətta məmurların o torpaqlara yaxın düşmələri belə qadağan edilirdi.

Feodalların malik olduğu çoxsaylı immunitetlər xüsusi, şərti və qeyd-şərtsiz feodal torpaq sahibliyi formalarının torpaq üzərində dövlət mülkiyyətinə nisbətən üstünlük təşkil etməsinə gətirib çıxarmışdı. Ümumilikdə götürdükdə feodal torpaq sahibliyinin kateqoriyaları arasında elə mühüm, köklü fərqlər də mövcud deyildi. Belə ki, onlar bir-birindən yalnız ya vərəsəlik üzrə ötürülmə forması ilə, ya həmin torpaq sahibliyinin vassal asılılığı dərəcəsi ilə, yaxud da torpaq sahibliyinin feodal hüquqlarının miqyası ilə fərqləndirilə bilərdi. İqtanın, soyurqalın

---

[6] Bax: Ализаде А.А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку, 1956, с.184; Рашид ад-дин. Сборник летописей., т.1, М.-Л., 1952, с.194-196.

paylanmasının geniş vüsət alması nəticəsində daha çox XIII əsrin ikinci yarısı – XIV əsrdə dövlət torpaq mülkiyyətinə münasibətdə xüsusi torpaq sahibliyinin üstünlük təşkil etməsi müşahidə olunurdu.

Torpaq sahibliyi formalarından biri də «vəqf» adlanan və dini təsisatlar üçün ayrılan torpaq mülkiyyəti idi. Ruhani və xeyriyyə təşkilatlarının, məscidlərin ixtiyarında olan bu torpaq sahələrindən əldə edilən gəlirlər dini vəzifəli şəxslərin saxlanmasına, məscidlərin, mədrəsələrin, ruhani idarələrinin ehtiyaclarına və ictimai təyinatlı binaların, tikililərin inşa edilməsinə məsrəf edilirdi. Torpaq sahələri ilə yanaşı, bağlar, dəyirmanlar, mədən yerləri, malikanələr, meşələr, otlaqlar və mədaxil verən hər bir müəssisə vəqf edilə bilərdi[7].

Vəqf torpaqlarında oturan kəndlilər bütün vergi və məhsul rentasını vəqf sahibinə və ya idarəsinə verməli idi. Belə idarələrə mütəvəllilər başçılıq edirdilər. Onların funksiyalarına vəqfə verilən əmlakın uçotu, vəqf əmlakından əldə edilən gəlirlərin hesablanması və onlardan təyinatı üzrə istifadə edilməsi daxil idi. Mütəvəllilərin səlahiyyətlərinin düzgün icra etmələri üzərində nəzarət ali rütbəli dini şəxs tərəfindən həyata keçirilirdi. Dini təsisatların xeyrinə yalnız dövlət başçıları deyil, bəzən ayrı-ayrı şəxslər də öz torpaq və malikanələrini, yaxud onun bir hissəsini vəqf şəklində verirdi.

Vəqf torpaqları XIV əsrdə iki hissədən ibarət idi: 1) «vəqfi-xeyri» - yalnız dini təsisatlara (məscidlərə, pirlərə, müqəddəs ocaqlara) məxsus olan ərazilər; 2) «vəqfi-əhli», yəni şəxsən ruhanilərə məxsus olan torpaqlar. Müqəddəs yerə və ya hökmdarın məzarına (gurxanə) vəqf edilən mövqufatın gəliri bir çox hallarda oranın müvacirinə çatır və beləliklə, vəqf əmlakın şəxsi mənimsənilməsi hallarından biri yaranırdı. Dini müəssisələrin xeyrinə verilən bütün ianələr vəqf adlanırdı. Nəzir və qurbanlıq əmlakları da belə adlanırdı. İanə vermək ianəçinin (vaqif) öz şəxsi işi idi.

Gəliri məscidlərin, məqbərə, mədrəsə, zaviyə, xanəgah və başqa ictimai tikintilərin, həmçinin onlarla əlaqəsi olan adamların saxlanılmasına xərclənən sahələr dini ianələr idi. İanəçi özünün tikdirdiyi məscidi vəqfə çevirə bilərdi. Vəqf torpaqlarının gəliri vəqfi verən şəxsin vəsiyyətinə əsasən məsrəf edilə bilərdi. Vəqf olunan əmlak vəqfnaməyə müvafiq surətdə idarə olunmalıydı. Vəqfə aid olan əmlak növlərinin hamısı bütün vergilərdən azad idi və onların özgəninkiləşdirilməsi qadağan edilirdi. Vəqflər, həm də, müsadirəyə məruz qalmadığından, bir çox torpaq sahibləri öz mülklərini vəqfə çevirərək ruhanilərin etibarlı müdafiəsi altına keçirir və öz soyadının ardınca mütəvəlli (vəqf işləri müdiri) vəzifəsini yazdırmaqla xəzinəyə ödəyəcəkləri vergilərdən yayınırdılar.

Dövlət tərəfindən kənd icmalarına ümumi istifadə hüquqları ilə verilən və kənd icmalarının ixtiyarında olan torpaqlara icma və yaxud «camaat» torpaqları deyilirdi. «Camaat» torpaqlarına bəzən əkin yerləri, otlaq, meşə, bataqlıq və sair torpaq sahələri daxil olurdu. Belə torpaqlar dövlətin xüsusi mülki hesab olunurdu. Kəndlilər icma halında istifadə etdikləri bu torpaq sahələrindən xərac vergisini dövlətə birlikdə verirdilər. Kənd icması bu torpaqlar üçün müəyyən edilmiş ağır vergiləri verə bilmədiyi hallarda dövlət bəzən camaat torpaqlarını icarəyə verirdi. İcma torpaqlarının ayrı-ayrı feodalların əlinə keçdiyi

---

[7] Şərifli M.X. Göstərilən əsəri, s.276.

hallarda fərdi təsərrüfatlar arasındakı icma əlaqələri tədricən itirilirdi.

Sadalanan torpaq mülkiyyəti formaları ilə yanaşı, XI-XII əsrlərdə torpaq sahibliyinin tamamilə yeni kateqoriyası – uc torpaqları da mövcud idi. Sərhəd xidmətini həyata keçirən döyüşçülər üçün nəzərdə tutulan bu torpaqlar onlara ya dövlət fondundan, ya da ki, yerli kəndlilərdən müsadirə edilmə yolu ilə ayrılırdı.

XIV əsrin əvvəllərində bütün istifadə olunmayan torpaqlar ehtiyata götürülmüş torpaqlar sırasına daxil edilərək, müsəlman hüququndakı «xam torpaqlar» hüquqi rejiminə tabe etdirildi. Bayrat torpaqları adlandırılan həmin torpaqların üç qrupa ayrılması və istifadə üçün rəiyyətlərlə müqavilə bağlanılması müəyyənləşdirildi.

Birinci qrup istifadə olunmayan torpaqlar su ilə təchiz olunmuş, yanında çay və ya kanal olan torpaqlar hesab olunurdu. Həmin torpaqların birinci il istifadəsi üçün divana vergi verilmirdi. İkinci il istifadə üçün nəzərdə tutulan vergidən yalnız 1/3-i verilirdi. 3-cü il istifadə üçün isə vergidən əmək haqqı saxlanılaraq qalan hissəsi verilirdi.

İkinci qrup torpaqlar nisbətən çətin istifadə olunan torpaqlar idi. Oraya su çəkilməsi lazımınca fayda vermirdi. Həmin torpaqlar da eyni şərtlərlə istifadə olunurdu, lakin üçüncü il divana verginin 2/3 hissəsi verilir, qalanı isə əkinçiyə qalırdı.

Üçüncü qrup torpaqlar daha çətin istifadə olunan torpaqlar idi. Oraya su çəkmək, sədd qurmaq lazım gəlir, yeraltı sular isə çətin çıxırdı. Belə torpaqlardan istifadə edənlər də eyni güzəştlərdən istifadə edirdilər, fərq isə bunda idi ki, üçüncü il istifadə etdikdə divana verginin yalnız yarısı verilir, qalan yarısı isə əmək haqqı kimi istifadəçidə saxlanılırdı. Həmin torpaq sahələri mülk kimi alınıb-satıla bilərdi, vergi isə xərac şəklində verilirdi. Bu torpaqların istifadə edilməsinə nəzarət, torpaqlar üçün müqavilə bağlanması, torpaqların təhkim edilməsi qaydasını müəyyən etmək üçün ayrıca divani-xalisat adlı divan yaradıldı. Ölü torpaqlar, yəni monqol istilasına qədər yararlı və istifadə olunan, sonradan xarabazara çevrilmiş torpaqlar isə hər hansı bir vergi güzəşti olmadan verilirdi. Həmin torpağın sahibi öz baratını gətirib torpağın əvvəllər ona məxsus olmasını sübut etsə belə, torpaq sahəsi ona qaytarılmır, onu yenidən canlandırana qalırdı. Həmin torpaqlardan əldə edilən gəlir divani-xalisatın hesabına keçirdi.

Ölkənin siyasi-hüquqi və iqtisadi həyatında feodalların hökmranlığının möhkəmlənməsi vergi siyasəti sahəsində də öz əksini tapmışdı. Müxtəlif ölkələrdə feodalizmin mühüm xüsusiyyətlərinin mövcudluğuna baxmayaraq, feodal istehsal üsulunun inkişafı hər yerdə ona xas olan ümumi qanunauyğunluqlar əsasında baş verirdi. Məlumdur ki, feodalizmdə istehsal torpaqlara sahib olan və ondan asılı kəndlilərin istismarı nəticəsində torpaq rentasını mənimsəyən feodalların mənafeyi ilə uzlaşdırılırdı. Bu baxımdan XI-XIV əsrlərdə Azərbaycanda torpaq rentasının üç forması – icbari renta, natural renta və pul rentası mövcud idi. Natural və icbari rentalar ölkənin iqtisadi həyatında üstün mövqeyə malik idi. Pul rentası isə şəhər təsərrüfatının yüksəlişi ilə müəyyyən olunurdu və artıq Azərbaycanın iqtisadiyyatında müəyyən əhəmiyyət kəsb edirdi.

Vergilərin əksəriyyəti torpaqla əlaqədar idi. Bir çox mənbələrdə XI-XII əsrlərdə kəndlilərdən, sənətkarlardan, habelə Azərbaycanın digər vergi verən əhali qruplarından alınan 20-dək müxtəlif vergi və töycü qeyd olunur. Müəyyən mənbələrdə daha artıq vergi və

mükəlləfiyyətlərin adları çəkilir. Mövcud vergi sistemi olduqca ağır idi və alçaldıcı üsullarla, döymə və işgəncə verməklə yığılırdı. Vergi yığımının icarə sistemi, təkrar vergi yığımı, fövqəladə vergilər və məmurların özbaşınalığı Azərbaycanın şəhərlərində və kənd təsərrüfatında məhsuldar qüvvələrin inkişafına mane olan amillər idi.

Azərbaycanda bu dövrdə ən ağır vergilərdən biri həm pul, həm də natura şəklində alınan torpaq vergisi – xərac idi. Xərac vergisi torpağın ölçüsünə və ya məhsulun miqdarına görə alınırdı. Torpaq sahələrinin ölçülməsi və məhsulun hesablanması zamanı məmurlar bir çox hallarda kəndliləri aldadırdılar. Uzunluq və sahə ölçü vahidi qismində, əvvəllərdə olduğu kimi, «zirə», «carib», «qəfiz», «üşr» kimi ölçü vahidlərindən istifadə edirdilər. Xərac, adətən, bir neçə müddətdə ödənilirdi. Birinci müddət əsas etibarilə məhsul yetişənə düşürdü. Məhsulla alınan xəracı məhsul hələ xırmanda ikən toplayırdılar. Məhsulun daşınması, maliyyə katiblərinin və sairənin bütün xərcləri vergini ödəyənlərin hesabına idi. Pul vasitəsinin genişlənməsi vasitəçilərin, sələmçilərin meydana çıxmasına və yoxsul sinfin daha amansız istismar olunmasına səbəb olurdu. Vergilərin pula çevrilməsi işində başlıca amil olan coğrafi şərait, suvarma üsulu, torpaq sahəsi üzərindəki xüsusi mülkiyyətin növü, becərmənin növü, qiymətlər və məhsulun miqdarı nəzərə alınırdı. Xəracın pulla ödənişi «idrar»ın (təqaüdlərin) və «əl-fəra»nın (ödənclərə əlavənin) təyinatı ilə əlaqələndirilirdi. [8]

Müsəlman olmayan əhalidən, yəni zimmilərdən və qeyrilərindən cizyə adlanan can vergisi tuturdular. Bu məqsədlə müsəlman olmayanların siyahısı tutulur, əhl-əz-zimmənin məskunlaşdığı əraziləri tərk etməməsi və bununla da cizyədən əldə ediləcək gəlirlərin əldən çıxmaması üçün tədbirlər görülürdü. Cizyə vergisi yalnız fiziki şəxslərin deyil, həmçinin müvəffəqiyyətlə nəticələnən hərbi döyüşlər zamanı başqa dinə mənsub olan dövlətin üzərinə də qoyulurdu.

Xass torpaqlarından və iqta sahiblərindən yığılan onda bir vergisi üşr adlanırdı. Adından göründüyü kimi, bu gəlirin ondan birini təşkil edirdi. İlk əvvəl üşr müsəlmanlara məxsus mülk torpaqlarından tutulurdu. Sonralar isə, o, iri feodallardan alınırdı. Üşr xəracın ibtidai və yüngül forması idi. Üşr vergisinin bütün vilayətlərdə xass və iqta torpaqlarından yığılması haqqında hökmdar fərmanının verilməsindən sonra yerlərdə bu verginin toplanması üzrə divanlar təsis edilmişdi.

Vergi sistemində mühüm yerlərdən biri haqq və ya hüquq-i divani adlanan, divanın xeyrinə yığılan vergilərin və dövlət tədiyyələrinin cəmi sayılan vergiyə məxsus idi. Bilavasitə dövlət xəzinəsinə daxil edilən bu vergi hesabına toplanan məbləğlərdən əmək haqları, idrarlar (pensiya), təsviqatlar (müavinət) və s. ödənilirdi. Bu vergi ilə birlikdə bəzən təbəələrdən dövlət başçısının fərmanı ilə inam adlanan və tərəfdaşlığı, sözsüz itaəti ifadə edən yığım da tutulurdu. Otlaqlardan istifadəyə görə yarımköçəri maldarlardan hüquq-i mərai vergisini tuturdular. Bir çox hallarda bu verginin yığımına təkalif adlanan ağır vergi və ya mükəlləfiyyət öhdəlikləri də əlavə olunurdu.

Gözətçi xidmətində duran hərbi və ya mülki dəstəni, yaxud da rəsmi şəxslər və onların atlarını yemlə təmin etmək üçün ələf adlı vergi müəyyən edilmişdi. Bu dövrdə ələf vergisinə bənzəyən və «özünün

---

[8] Вах: Бейлис В.М. Сочинения Мас'уда ибн Намдара как источник по истории Аррана и Ширвана начала XII в. и памятник средневековой арабской литературы. Автореферат докторской диссертации. Баку, 1975, с. 27-28.

mövcudiyyətini saxlamaq» məqsədilə qeyri-qanuni yığılan məuna (məunat, müan) vergisinə də mənbələrdə rast gəlinir. Nüzl (nüzul, bir çox hallarda ənzal formasında) vergisi mənzil haqqı və ya dayanacaq mükəlləfiyyəti qismində çıxış edirdi. Bu mükəlləfiyyət və ya yığım hakim təbəqənin nümayəndələrinin və onların qulluqçularının, atlarının əhali tərəfindən məcburi olaraq qeyri-müəyyən müddətə evlərdə yerləşdirilməsi və yedizdirilməsini nəzərdə tuturdu.

Əməkçi əhali həşər adlanan məcburi mükəlləfiyyəti də icra etməli idilər ki, bu da müharibə və hərbi yürüşlər zamanı onların könüllü qismində çıxış etmələrini ehtiva edirdi. Könüllülər, əsasən, məhsuldar əməklə məşğul olan gənclərdən ibarət idi və bu mükəlləfiyyəti yerinə yetirməklə onların əməkdən məcburi olaraq ayrılmaları ölkənin iqtisadi inkişafına əhəmiyyətli dərəcədə ziyan vururdu.

Təhəkkümat (təhəkküm – «qərar», «nəzarət») bir sıra yığım və rüsumları özündə ehtiva edirdi. Buraya əsasən gömrük rüsumu, gözləmə haqqı və bədrak adlanan mühafizəyə görə haqq aid edilirdi. Təhəkkümat vergisindən yalnız dini təsisatlar və vəqfə məxsus olan əmlak azad idi.

Təyyarət (keçici) və ya dəraib («rüsum», «kontribusiya») adlanan və şəhər qapıları qarşısında yığılan rüsumları ifadə edən xüsusi vergilər də mövcud idi. Fərmanlarda dəraibin bir sıra növlərinə rast gəlinir. Bunlara şəhərlərdən yığılan xüsusi vergi olan dəraib-i şəhr, qəsəbə və kiçik şəhərlərdən toplanılan dəraib-i qəsəbə aid edilirdi.

Pul ödənişlərindən başqa, əhali, xüsusilə sənətkarlar öz sənətinin məhsulları ilə (şərab, dolçalar, şəkər və s.) də töycü verirdilər. Şəhər əhalisi digər mükəlləfiyyətlər də daşıyırdı. Belə ki, məsələn, inşaatçılar, dülgərlər, dəmirçilər və digərləri əs-sührə («haqqı ödənilməyən iş»), və ya əl-fi"l («xüsusi iş»)[9] adlanan mükəlləfiyyətləri yerinə yetirirdilər.

Əhalidən tutulması üçün məmurlara icarəyə verilən vergilərin içərisində qeyri-qanuni və soyğunçu yığımlar olan dəstərçə (hədiyyələr şəklində yığılan töycü), şərab-baha (şərabın əldə edilməsi üçün yığım), nal-baha (atların nallanması üçün yığım), mal əs-silah (silah, yaraq-əsləhə əldə edilməsi üçün yığılan vəsait) və s. kimi vergilər də mövcud idi. Feodal toyları zamanı əhalidən süd pulu, cehiz pulu məqsədilə şir baha deyilən vergi toplanırdı.

Bunlarla yanaşı, təbəələrdən iqta sahiblərinin xeyrinə tutulması müəyyən edilən mənal (qeyri-müəyyən xüsusi yığım), mərafiq (əmlak ödənişi), əvariz (fövqəladə hallarda tutulan vergi), qismət (qisəm – «hissə», xüsusi vergi) və s. kimi ödəmələr[10] də maliyyə dəfatirlərində müəyyən edilmişdi.

Vergi sisteminə göstərilən vergi və töycülərdən başqa, müəyyən əhali təbəqələrinin ödəməli olduqları dini xarakterli müxtəlif yığımlar da daxil idi. Bunların içərisində zəkat və zəkat əs-sədəqə vergiləri əvvəlki dövrdəki xüsusiyyətini, yəni müsəlmanların öz əmlaklarından nəzir vergisi vermək mahiyyətini saxlayırdılar.

Elxanilər dövründə Azərbaycanda mövcud olan vergi sistemi də müəyyən dəyişikliyə məruz qalmışdı. Bu dövlətin ərazisində qırxa yaxın vergi və yığım növünə rast gəlinirdi. Əvvəlki dövrdə olduğu kimi, əsas torpaq vergisi xərac idi. Əməkçi kütlələr üçün onsuz da ağır olan bu verginin yığılması bu dövrdə daha kobud və yırtıcı bir formada həyata

---

[9] Beylis V.M. Göstərilən əsəri, s.28.

[10] Бах: Ализаде А.А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку, 1956, с.237-242.

keçirilirdi. Xərac iki hissədən ibarət idi: əsl, yəni əsas hissə və far' – əlavə hissə. Xəracın əsas hissəsinin ölçüsü məhsulun 60, bəzən də 70 faizə qədərini əhatə edirdi. Əlavə hissə isə illik məhsulun onda biri qədər yığılırdı. Far', əsas etibarilə, maliyyə məmurlarının və vergi yığanların saxlanılmasına və məvaciblərinə sərf olunurdu. Xəracın bir hissəsi vaxtından əvvəl (təkəddömə), yəni məhsulun ilkin qiymətləndirilməsindən (tasir) sonra yığılırdı ki, bu da kəndlilərin maddi durumunun daha da pisləşməsinə səbəb olurdu. Yalnız islahatdan sonra xəracın əvvəlcədən yığımı qadağan edilmişdi və bu vergi dəqiq müəyyən edilmiş məbləğdə, müəyyən olunmuş ay ərzində ödənilməli idi. Lakin bu dövrdə də xəracın illik məbləği 70 %-ə çatırdı.

Yeni vergi olan qopçur[11] ölkəmizin ərazisində monqollar tərəfindən tətbiq olunaraq yayılmışdı. Bu verginin ilkin xarakteri ondan ibarət idi ki, hər bir köçəri yüz baş heyvandan bir baş heyvan olmaq etibarilə, yəni 1% məbləğində vergi ödəməli idi. Bununla belə, işğalçılıq əməliyyatlarının həyata keçirilməsindən sonra qopçur vergisinin xarakteri dəyişir və müxtəlif dövrlərdə müxtəlif məzmun kəsb edir ki, bu da işğalçıların qəsb etdikləri ölkələrdə toqquşduqları təsərrüfat formalarının dəyişməsi ilə əlaqədar idi. Yeni şəraitdə, həm də «müvazieyi-saliyanə» adlanan bu vergi həm natura ilə (köçəri əhalidən), həm də pulla (yerli oturaq əhalidən) yığılırdı. Köçərilərdən yığılan qopçurun məbləği dəyişməsə də, oturaq əhali üçün bu vergi onların sosial vəziyyətindən asılı olaraq pulla tutulurdu. Belə ki, verginin məbləği varlılar üçün yeddi dinar, yoxsullar üçün isə bir dinar müəyyən edilmişdi.

Dövlət xərclərinin artdığı dövrlərdə, xüsusilə hərbi yürüşlər zamanı qopçurun məbləği artırılırdı. Həmin vergi bəzən öz mahiyyəti etibarilə can vergisi ilə eyniləşdirilir və bu amil yenə də onun xarakterinin dəyişkənliyi ilə bağlı idi. Tarxan, yəni üləma (əsasən müsəlman və xristian ruhaniləri) hesab edilən şəxslər, qocalar, xəstələr, dərvişlər və uşaqlar qopçur vergisi ödəməkdən azad idilər. Qopçur vergisi vaxtaşırı olaraq şəhər əhalisindən də alınırdı və yalnız islahatdan sonra şəhərlərdən bu verginin yığılması qadağan olunmuşdu.

Şəhərlərdə qopçurun əvəzinə tamğa adlanan vergi yığılırdı. Bu vergi növü ticarət və sənətkarlıq müəssisələrinə münasibətdə tətbiq olunurdu və ayrı-ayrı hallar istisna olmaqla, vergi ödəyiciləri tərəfindən pulla ödənilirdi. Mərkəzi hakimiyyət tərəfindən nəzarətin olmaması məmurları öz hüquqlarından sui-istifadəyə sövq edirdi və onlar tamğa vergisini müəyyən edilmiş məbləğdən daha artıq və müxtəlif bəhanələrlə yığırdılar. Bu da şəhər əhalisinin tədricən yoxsullaşmasına və şəhər həyatının tənəzzülünə gətirib çıxarırdı.

Yüklərin sərhədlərdən keçirilməsinə, mal gətirilməsi və aparılmasına, gəmilərin keçməsinə görə tutulan rüsum bac adlanırdı. Yol rüsumunu əsasən karvan yollarında tacirlər ödəyirdilər. Karvan yollarının soyğunçulardan mühafizəsi üçün dövlət xüsusi silahlı dəstə saxlayırdı. Lakin bu mühafizə dəstəsi də soyğunçuluqla məşğul olur, hətta bəzən tacirləri də qətlə yetirirdi. XIII əsrin axırlarında həyata keçirilən islahat nəticəsində belə halların da qarşısı alınmışdı.

Dözülməz mükəlləfiyyətlərdən biri biyar adlanırdı. Əvvəlki dövrlərdə də mövcud olan bu mükəlləfiyyət kəndlilərin başlıca olaraq sarayların, körpülərin, yolların, qalaların və s. tikintisinə məcburi

[11] Yenə orada, s.198-210.

şəkildə cəlb edilməsini nəzərdə tuturdu. Kəndlilər yalnız feodalların xeyrinə deyil, habelə dövlət üçün də göstərilən işləri yerinə yetirirdilər.

Taqar[12] adlanan və bu dövrdə yeni tətbiq edilən vergi qoşunların saxlanılması üçün əhalidən yığılırdı. Taqarın əksər hissəsi qida məhsulları ilə toplanılırdı. Bəzən bu vergi bir neçə il üçün əvvəldən yığılırdı və belə vəziyyət hərbi yürüşlər zamanı daha kəskin xarakter alırdı.

Əsas vergilərdən biri qismində çıxış edən kalan öz mahiyyəti etibarilə həm qopçura, həm xəraca, həm də taqara bənzəyirdi. Sənədlərdə kalan vergisinin becərilmiş sahələrdən, əsasən oturaq əhalidən tutulması, qopçurdan fərqli olaraq şəhər əhalisinə də şamil olunması barədə qeydlər mövcuddur. Bu verginin məbləği dəqiq müəyyən edilmədiyindən hər dəfə konkret fərmanlarda müxtəlif vilayətlər üçün müxtəlif rəqəmlərə rast gəlinirdi.

Ələfə istilahı feodal qoşunlarındakı heyvanların yemlənməsindən ötrü toplanmış vergini nəzərdə tuturdu. Bu ad altında bəzən hakim dairənin tələbi ilə döyüşçülər üçün rəiyyətdən yığılan ərzaq da başa düşülürdü. Ülufə isə vergiyığanlar, dövlət məmurları və əsgərlər üçün toplanan vergi növü idi. Mənbələrin məlumatına görə ülufə sədrlərin (ali ruhani şəxs) icazəsi ilə mütəvəlli, vəqf işçiləri, pişnamaz və azançılara da verilirdi.

Savəri bəzi mənbələrdə «peşkəş» istilahı ilə birlikdə işlənir və «könüllü verilən hədiyyə» mənasında anlaşılırdı. Bu vergi bütün yüksək rütbəli dövlət məmurlarının qarşılanma və yola salınmaları zamanı onlara təqdim edilirdi. Şəhərlərdə tacir və sənətkarlardan dövlətin nəfinə tamqa adlanan vergi yığılırdı. Şəhər sakinləri və kəndlilər dövlət xəzinəsinə çox aşağı qiymətlərlə müxtəlif əmtəələr verməli idilər ki, belə yığım «tərx» adlanırdı. Tərx adı altında, həmçinin, dövlətin yığılıb qalmış artıq mallarını məcburi olaraq bazar qiymətlərindən daha artıq məbləğdə olmaqla şəhər əhalisinə satmasından əldə edilən gəlir başa düşülürdü.

Müxtəlif növ xüsusi əmlakdan bağ, meşə sahəsi, dəyirman və s.-dən, ümumiyyətlə, rəiyyət və yarımköçərilərdən alınan vergi mal (bəzən də bu renta «mal-i divani», «mal mütəvəcihat» adlandırılırdı) adlanırdı. Bəzən mal dedikdə, dövlət xəzinəsinə daxil olan vergilər yığımı nəzərdə tutulurdu. Şəhəri döyüşlə tutan, yaxud şəhər əhalisindən narazı qalan hökmdar onlardan böyük məbləğdə aman malı (mal-i əmani – val-i amani – işğal olunmuş şəhərin və ya kənd icmasının əhalisinin üzərinə kontribusiya şəklində qoyulmuş vergi)) tələb edirdi.

Sadalanan vergi növləri ilə yanaşı, yam və ya ulaq (poçt məntəqələrinin və bu məntəqələrdəki atların saxlanılması üçün yığılan vergi), çərik (rəiyyət içərisindən ordu yığılması ilə bağlı mükəlləfiyyət), bəhrə (həm də çahar-yek, məhsulun beşdə bir və ya dörddə bir hissəsi), nəzl (peşkəş, töhfə, hədiyyə şəklində hökmdarın, hakim sülalə üzvlərinin, köçəri feodalların, vilayət başçılarının və yerli feodalların xeyrinə şəhər və kənd əhalisindən əsasən natural formada, yəni qida məhsulları ilə yığılan vergi), bəkayə (vergi qalığı adı altında toplanılan əlavə yığım növü), tərğu və ya tozqu (hökmdar, xatunlar, şahzadələr, hərbi rəislər və s. yüksək rütbəli şəxslərin yerlərə gəldiyi halda həmin yerin feodal və əyanlarının onları qiymətli hədiyyələr – qiymətli əşyalar, paltar, parça və digər bahalı predmetlərlə qarşılamaq borcu), şusun

---

[12] Əlizadə Ə.Ə. Göstərilən əsəri, s. 230-232.

(çaparlar üçün verilən ərzaq məhsulları), nəmari (əlavə yığım), ternagir (bac rüsumuna bənzər vergi), tobqur (tobqurat – fövqaladə hallarda dövlətin düçar olduğu çətinliкlə bağlı yığılmalı olan əlavə vergi), qərəq yaraq və ya mal əs-silah (hərbi dəstələr üçün silah-sursatın əldə edilməsi ilə bağlı əhalidən toplanılan кöməк formasında xüsusi yığımlar), səranə (sər-şumar – özbaşına yığılan can vergisi), xanə-şumar (tüstü pulu), rəsm-i xəzanə (rəiyyətdən xəzinənin anbarlarında natural yığımların saxlanılması üçün xəracın 0,5 faizi məbləğində yığılan vergi), nefti, ürfi, bağ-şumar, nal-baha, şərab-baha, şir baha (yerli vergilər), cizyə, əvarizat, təкlifat, vücuhat, təvəккü'at, tövziat, təкsimat, müzahimət, ixracat adlanan vergi və müкəlləfiyyətlər mövcud idi.

Bütün bu vergi və müкəlləfiyyət növləri eyni zamanda bütün vilayətlərin əhalisinə şamil olunmurdu. Hər hansı vilayətdə bunlardan bir neçəsi, digərində isə başqaları tətbiq oluna bilərdi. Laкin göstərilənlərdən bir çoxu bütün ölкə ərazisində məcburi xaraкter daşıyırdı. Onu da qeyd etməк lazımdır кi, sadalanan vergilərin bir qismi vergi islahatı nəticəsində ləğv edilmişdi.

Vergilərin vaxtında və tam şəкildə yığımını təmin etməкdən ötrü vaxtaşırı şəhər və кənd saкinlərinin, hətta кiçiк yaşayış məsкənlərinin əhalisinin adbaad əhatəli siyahıya alınması həyata кeçirilirdi. Bu məqsədlə hər vilayət (tümənliк) üçün dəftərxana кitabları ayrılmışdı və bitiкçilər tərəfindən alınan bütün məlumatlar həmin кitablarda əкs etdirilirdi.

Vergilərin yığılmasının tənzimlənməsi ilə ilə bağlı həmin dövrdə N.Tusinin yazdığı «Maliyyə haqqında traкtat» əsərində qiymətli fiкirlərə rast gəlinir. Həmin əsərdə maliyyə və vergi sistemində elə dəyişiкliкlərin aparılması təкlif edilirdi кi, bunlar ilк növbədə istehsalçıların marağının canlanmasına xidmət etsin. Bunun üçün o, öz dövründə vergilərin toplanmasında özbaşınalığı nəzərə alaraq, əsas dörd vergi növünün tətbiq edilməsini məqsədəuyğun sayırdı: əкinçilərdən xərac formasında; tacirlərdən tamqa formasında; heyvandarlardan «məral» deyilən vergi; təsadüfi gəlirlər şəкlində xəzinəyə daxil olan vəsaitlər. Bunlarla yanaşı o, vergi və rüsumların dərəcələrini, toplanma vaxtını irəlicədən müəyyənləşdirməyi, təbəələrin bu vergiləri ödəmə imкanlarını nəzərə almağı dövlət məmurlarının başlıca vəzifəsi hesab edirdi[13]. Adı çəкilən «Traкtat»da istehsal münasibətləri, torpaq sahibliyi formaları, əhali təbəqələrinin hüquqi vəziyyəti, xüsusilə də tacir və sənətкarlarla dövlət arasındaкı qarşılıqlı münasibətlərlə bağlı çoxsaylı təкliflər öz əкsini tapmışdır. Ehtimal olunur кi, N.Tusinin traкtat şəкlində dövlətə təqdim etdiyi bu təкliflər və islahatlar onun ölümündən sonra Qazan xanın həyata кeçirdiyi islahatlarda nəzərə alınmışdı.

Qazan xanın təsərrüfat və iqtisadiyyatın idarə edilməsi barədə islahatlarında da vergi sisteminin qaydaya salınması önə çəкilirdi. Vergilərin qaydaya salınması, vergilərin dəqiq müəyyən edilməsi üçün 1304-cü ilin fevralında verilmiş fərmanla məhsulun irəlicədən qiymətləndirilməsi qaydası ləğv edilmişdi.

Vergi sistemində islahata qədər vilayətlərdən vergi yığmaq vilayət haкimlərinə həvalə olunmuşdu, haкimlər istədiкləri кimi əhalini soyur, müxtəlif bəhanələrlə əmlaкını əllərindən alırdı. Çaparların hər dəfə vilayətə gəlmələri yerli əhalini müflis hala salırdı. Vergilər yığılması

[13] Рзаев А.К. Насирэддин Туси /Политикоправовые воззрения /, Баку, 1983, с.21-26.

üçün əsassız baratlar meydana çıxır, alınmış vergilərin təkrarən alınması adi hal alırdı. Qazan xan fərmanla yerli hakimlərin barat vergi toplamaq hüququ verən sənəd yazmasını qadağan edib, bütün vilayətlərə bitikçilər göndərərək əhalini sıyahıya aldırıb üzərlərinə kopçur vergisi qoydurdu. İlin əvvəlində bitikçi hər bir kəndliyə adını göstərməklə barat yazırdı. Hər hansı başqa bir şəxsin barat yazması ağır cəzaya – həmin şəxsin edam olunmasına səbəb ola bilərdi. Həmin baratlar divanda möhürləndikdən sonra vilayətlərə göndərilir və onun əsasında vergi yığılırdı. Natural şəkildə verginin gətirilib xəzinəyə verilməsi qadağan edilmişdi. Xəzinəyə yalnız pul verilməli idi. Bütün vilayətlərdə rəiyyətlər, verəcəkləri vergi məbləğini əvvəlcədən bilirdilər. Hər bir rəiyyətin nə qədər vergi verəcəyi barədə siyahıda kənd ağsaqqal və rəisləri imza edirdi. Fərmanın yerinə yetirilməməsinə görə ağır cəzalar verilir, əmirlər, hakimlər belə edam edilirdi. Vergi siyahılarının biri böyük divanda, biri də vilayətdə saxlanılırdı.

Fərmana görə verginin məbləği kəndin girəcəyində və ya məscidlərdə yazılıb vurulur və ödənmə müddəti vilayətlər üzrə müəyyən edilirdi. Oturaq əhalidən kopçur vergisinin birinci yarısı yeni ilin 20 günü keçənə qədər, qalan hissəsi sonra, ilin axırına qədər yığılmalı idi. Oturaq əhalidən fərqli olaraq köçərilər həmin vergini ilin əvvəlində tam həcmdə ödəməli idilər. Gömrüklər ərazinin soyuq və isti qurşaqda yerləşməsindən asılı olaraq ilin əvvəlindən və ya sonrakı aylardan birində alınırdı[14]. Həmin qayda iqta torpaqlarına da şamil edilirdi. İqtadarlar öz iqtalarında olan kəndlərdə vergilərin məbləğini iri taxta lövhələrə yazıb rəiyyətlərinə çatdırmalı, vergi həcmini aşmamalı, əks təqdirdə cəzalanmalı idilər. Eyni qayda incu, xas-incu və mülk torpaqlarında yaşayan rəiyyətlərə də aid edilirdi. İslahat nəticəsində xəzinəyə pul axını güclənmiş, qoşunun saxlanma xərclərinin tam ödənilməsinə başlanılmışdı. Təsərrüfat işlərində qanunsuzluğa yol verilməməsi üçün hüquqi aktların tərtibinin xüsusi qaydası müəyyən olunmuş, yarlıq və payz sənədlərinin tərtibi həmin sahə üzrə ixtisaslaşmış əmirlərə həvalə edilmişdi.

Vergilərin vaxtında ödənilməməsinə görə qalığı olan vergi ödəyicilərinə münasibətdə əsas vergi məbləğinin bir faizi həcmində cərimə tətbiq olunurdu. Müəyyən olunmuş müddətdə vergini ödəməyənlər 70-dək çubuq cəzasına da məruz qalırdılar. Belə cəzaya, həmçinin, əhalidən baratlarda müəyyən olunmuş məbləğdən artıq yığımları həyata keçirənlər də məhkum olunurdular. Vergilərin artıq məbləğdə yığılması məqsədilə saxta baratların yazılması ölüm cəzasına səbəb olurdu. Vergilərin ödənilməməsinə görə əmlakın müsadirəsi və borcunu ödəyə bilməyənlərin köləyə çevrilməsi kimi cəzalar da tətbiq edilirdi.

**ƏDƏBİYYAT**


1. S.B. Aşurbəyli Şirvanşahlar dövləti. Bakı, Azərnəşr, 1997.
2. А.А.Ализаде Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв., Баку, 1956.
3. А.А. Ализаде Фазлуллах Рашид ад-дин. Джами ат-таварих, т.3, Баку, 1957.
4. А.А. Ализаде. К вопросу об институте «инджу» в Азербайджане. Сборник статей по истории Азербайджана, выпуск , Изд. АН Азерб. ССР, Баку, 1949
5. Ализаде А.А. Мухамед ибн Хиндушах Нахчивани. Дастур ал-катиб фи таййи ал-маратиб. М., 1976.


---

[14] Cəlilov E. Azərbaycanın dövlət və hüququ (XIII-XIV yüzillər). Bakı, 1995, s.30.

6. Бартольд В.В. Сочинения, т.1, М., 1963.
7. Бейлис В.М. Сочинение Мас’уда ибн Намдара как источник по истории Аррана и Ширвана начала XII века и памятник средневековой арабской литературы. Автореф. докт. дисс. Баку, 1975.
8. Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər). Вакı, 1985.
9. Буниятов З.М. Выдающиеся личности Азербайджана в сочинении Ибн ал-Фувати «Талхис Маджма ал-Адаб фи Му'джам ал-Алкаб». «Известия АН Азербайджанской ССР», серия истории, философии и права, 1970, № 3- 4.
10. Cəlilov E. Azərbaycanın dövlət və hüququ (XIII-XIV yüzillər). Вакı, 1995.
11. Фазлуллах Рашид ад-дин. Джами ат-таварих, русск. перевод., т.3, Баку, 1957.
12. Фазлуллах Рашид ад-дин. Сборник летописей., т.1, М.-Л., 1952.
13. Xacə Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. Вакı, 1980.
14. История Азербайджана. Т.1. Баку, 1958.
15. Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII вв., Баку, 1981.
16. Гордлевский В.А. Избранные сочинения, т.1. М., 1960.
17. Nizam ül-mülk. Siyasətnamə, Bakı, 1989.
18. Piriyev V.Z. Azərbaycan Hülakilər dövlətinin tənəzzülü dövründə. Вакı, 1978.
19. Петрушевский И.П. Земледелие и аграрные отношения в Иране в XIII-XIV вв., М.-Л., 1960.
20. Şərifli M.X. IX əsrin 2-ci yarısı – XI əsrdə Azərbaycan feodal dövlətləri. Вакı, 1978.

## НЕКОТОРЫЕ ЧЕРТЫ ЗЕМЕЛЬНЫХ ОТНОШЕНИЙ И НАЛОГОВОЙ СИСТЕМЫ В АЗЕРБАЙДЖАНЕ В XI-XII вв.

**Х.Дж.ИСМАЙЛОВ**

### РЕЗЮМЕ

В статье рассматриваются некоторые особенности землевладения и налоговой системы в Азербайджане в период завершения формирования и начала развития феодальных отношений. Восстановление и расширение сельскохозяйственного, а также промышленного производства во многом способствовали благоприятному развитию внешней и внутренней торговли, тем самым были созданы условия для будущего развития экономического состояния и экономических сношений Азербайджана. В этом контексте данная работа выдвинула на первый план обстоятельный анализ новых отношений, возникшими в связи с новыми формами землевладения и земельной собственности, а также обязательствами из выполнения повинностей и выплаты налогов перед государством и отдельными землевладельцами.